

**Hüseynov Emin Fərmayıl oğlu**

Emin Fərmayıl oğlu Hüseynov 1990-cı il avqustun 20-də Tovuz rayonunun Yanıqlı kəndində anadan olub. 1997-2008-ci illərdə A.Hüseynov adına Yanıqlı kənd tam orta məktəbində təhsil alıb.

Emin Hüseynov 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Emin Hüseynov Tovuz döyüşlərindən sonra SHXÇDX-nə müraciət edib. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Emin Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Murovdağ döyüşləri zamanı yaralanmasına baxmayaraq yenidən döyüş meydanına qayıdıb. Qumbaraatan olan Emin Hüseynov Ermənistan Ordusunun canlı qüvvəsinin və texnikasının məhv edilməsində fərqlənib. Emin Hüseynov Xocavənd döyüşləri zamanı şəhid olub. 18 noyabr 2020-ci il tarixdə Tovuz rayonunun Yanıqlı kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Hüseynov Emin Fərmayıl oğlu "Vətən uğrunda", “Hərbi xidmətlərə görə”, “Füzulinin azad olunmasına görə”, "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.